**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi**
**Sumqayıt şəhər Mədəniyyət və Turizm İdarəsi**
**Mərkəzləşdirilmiş Kitabxana Sistemi**

**S.Vurğun adına Mərkəzi Kitabxananın**
**Elmi-tədqiqat bölməsi**

# 2015-ci ilin "MÜTALİƏ İLİ" adlandırılması haqqında

# Ə S A S N A M Ə

**SUMQAYIT – 2015**

## 2015-ci ilin “MÜTALİƏ İLİ” adlandırılması haqqında

## Ə S A S N A M Ə

**Ümumi müddəlar**

"Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda və son illər ərzində respublikamızda kitabxana işinin inkişafına dair qəbul edilmiş bir sıra mühüm sənədlərdə kitabxana xidmətinin əhatə dairəsinin genişləndirilməsi, onun forma və məzmunca yeniləşdirilməsi əsas muddəa kimi irəli surulmuşdür. Bu gün kitabxanaşünaslıq və biblioqrafiya biliklərinin hərtərəfli təbliği, elmi dünyagörüşünün formalaşması, əmək tərbiyəsi və elmi texniki tərəqqiyə kömək, mənəvi tərbiyə, estetik tərbiyə və təhsil sahəsində əhalinin bliklərinin artırılması günün tələbinə çevrilmişdir. Buna görə də Sumqayıtda əhalinin bütün təbəqələrinin kitabxanaya cəlb edilməsi, onların mütaliə mədəniyyətinin, mütaliə qabiliyyətinin artırılması məqsədilə 2015-ci ilin “MÜTALİƏ İLİ” adlandırılması qərara alınmışdır

**MÜTALİƏ ILI-2015” adlı layihənin həyata keçirilməsində əsas məqsəd:**

1. Müasir informasiya texnologiyaları vasitəsilə kitabxana fondunun təbliği;
2. Kitabxana xidmətinin əhatə dairəsinin genişləndirilməsi;
3. Kitabxana xidmətinin forma və məzmunca yeniləşdirilməsi;
4. Şəhər əhalisinin bütün təbəqələri arasında mütaliə və məlumat mədəniyyətinin yüksəldilməsi və fəallığının artırılması;
5. Əhalidə mütaliəyə marağın formalaşması üçün mümkün şəraitin yaradılması;
6. Kitabxanaçı peşəsinin nüfuzunun artmasına çalışmaqdır.

**“MÜTALİƏ ILI” adlı layihənin həyata keçirilməsində qarşıda duran vəzifələr :**

1. Əhalidə mütaliə mədəniyyətinin əmələ gəlməsi, formalaşması və inkişaf etdirilməsi üçün kompleks tədbirlərin hazirlanması və həyata keçirilməsi;
2. Məlumat-informasiya mənbəyi kimi şəhər kitabxanalarının inkişaf etdirilməsi və maddi-texniki bazasının daha da möhkəmləndirilməsi üçün tabe olduğu təşkilatlar qarşısında məsələ qaldırılması;
3. Kitabxana şəbəkəsi bazasında oxucu və ya mütaliə dərnəklərinin, klublarının, ədəbi dərnəklərin, uşaq- böyük cəmiyyətlərinin yaradılması, inkişaf etdirilməsi və görülən işlər haqda məlumatın kitabxananın veb-saytında yerləşdirilməsi;
4. İctimai təşkilatların, mədəniyyət müəssisələrinin, kitabxanaların fəaliyyət gücünün internet vasitəsilə əlaqələndirilməsi;
5. “İlin kitabxanaçısı”, “İlin kitabxanası”, “İlin oxucusu” nominasiyaları üzrə həvəsləndirici mükafatların təsis edilməsi.